**UOT 327**

# XX ƏSRDƏ İRAN - SƏUDİYYƏ ƏRƏBİSTANI MÜNASİBƏTLƏRİNİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ

**Həcər SƏFİYEVA***

***Açar sözlər:*** *İran, Səudiyyə Ərəbistanı xarici siyasət, İslam, müharibə*

İranın regional maraqları kontekstində Səudiyyə Ərəbistanının mövqeyi xüsusi yer tutur. İran və Səudiyyə Ərəbistanı arasında 1979-cu ilə qədər olan əməkdaşlıq Qərb iqtisadiyyatı üçün son dərəcə əhəmiyyətli rol oynamışdır. Dünyanın neft ehtiyatlarının dörddə birinə, Asiya və Afrikanın dəniz sektorunun mərkəzinə nəzarət edən, ərəb ölkələri arasında ən böyük dəniz sərhədinə, üçüncü dünyanın ərəb və bir sıra qeyri-ərəb ölkələri arasında yüksək nüfuza sahib olan Səudiyyə Ərəbistanı regional dövlətlər və onların qonşuları, o cümlədən İran ilə münasibətlərdə mühüm əhəmiyyət kəsb edirdi. Səudiyyə Ərəbistanının səciyyəvi xüsusiyyətləri, regional və beynəlxalq məsələlərə təsiri strateji maraqların təmin olunması baxımından bu ölkə ilə münasibətlərin əhəmiyyətini artırırdı (15).

İran və Səudiyyə Ərəbistanı arasında dövlətlərarası münasibətlər 1929-cu ildə qurulmuş və öz inkişafında bir neçə dövrdən keçmişdir.

a) 1929-1953-cü illər. 1929-cu ildə iki ölkə arasında münasibətlər dostluq müqaviləsinin imzalanması ilə başlanmışdır. 1935-ci ildə İranın Ciddədəki səfirliyi bağlandı və İranın Qahirədəki səfiri Səudiyyə Ərəbistanında səlahiyyətli səfir təyin edildi. 1943-cü ildə İran zəvvarı Əbutalib Yəzdi ilə bağlı yaşanan hadisəyə görə iki ölkə arasındakı siyasi münasibətlər pozuldu və İran münasibətləri kəsdi (10). Bunun ardınca Həcc ziyarətinə qadağa qoyuldu. Dörd il sonra, 1947-ci ildə ölkələr arasında əlaqələr bərpa olundu, 1951-ci ildə İranın Ciddə səfirliyi yenidən açıldı.

b) 1953-1964-cü illər. İranda neft sənayesinin milliləşdirilməsi və 1952-ci il Misir inqilabı, 1958-ci ildə Misir və Suriyanın birləşməsi, İran və Misir arasında gərginliyin artması ilə əlaqədar İran İsraillə münasibətlər qurmağa qərar verdi. 1961-ci ildə İran və İsrail arasında siyasi nümayəndələrin mübadiləsi İranın Səudiyyə Ərəbistanı ilə münasibətlərinin pisləşməsinə səbəb oldu. Digər tərəfdən, Bağdad Paktını gücləndirmək cəhdləri də iki ölkə hökumətləri arasında münasibətlərin soyumasına gətirib çıxardı (13).

c) 1964-1975-ci illər. Bu dövrdə iki ölkə arasındakı münasibətlərə əsasən böyük regional və beynəlxalq hadisələr, xüsusilə 1967-ci il (Altı günlük müharibə) və 1973-cü il ərəb-İsrail müharibələri, İngiltərənin Körfəz bölgəsindən geri çəkilmək niyyəti, 1968-1971-ci illərdə gerçəkləşdirilən Nikson doktrinası və nəhayət, artan neft qiymətləri təsir göstərirdi. 1967-ci ildə Muskat şəhərində keçirilmiş İran körfəzi ölkələrinin, Səudiyyə Ərəbistanının, İraqın və İranın xarici işlər nazirlərinin görüşü zamanı Tehranın Səudiyyə Ərəbistanı ilə Körfəz dövlətləri arasında sazişə qoşulmaması da qeyd edilməlidir (20). Bu dövrdə iki ölkə arasında dəniz sərhədlərinin demarkasiyası haqqında saziş (1968) imzalandı, bu da bölgədə neft hasilatı ilə bağlı bəzi fikir ayrılıqlarını həll etməyə imkan verdi.

ç) 1975-1979-cu illər. Bu dövrdə iki ölkə arasındakı münasibətlərə təsir edən ən əhəmiyyətli dəyişikliklər sırasında 1975-ci ildə sərhəd mübahisələrinin həlli, Səudiyyə kralı Feysəl bin Əbdüləziz əl-Səudun ölümü və bu hadisənin Tehranla ər-Riyad arasındakı mehriban qonşuluq münasibətləri üçün nəticələri qeyd olunmalıdır.

d) 1979-1989-cu illər. İranda İslam İnqilabının qələbəsindən sonra Xalid ibn Əbdüləziz əs-Səud İranda İslam hökumətinin qurulmasının iki ölkə arasında daha yaxın münasibətlərin başlanğıcı olacağını bəyan etdi, lakin Tehranda Azadlıq Cəbhəsinin qurulması tədricən Səudiyyə Ərəbistanına qarşı mənfi ictimai rəyin yaranmasına səbəb oldu. İran rəsmiləri Səudiyyə Ərəbistanının bölgə və İslam dünyası ilə bağlı siyasətini, eləcə də onun ABŞ-la sıx əlaqələrini tənqid etdi. Səudiyyə Ərə-

* *AMEA Fəlsəfə İnstitutunun dissertantı*
*E-mail: khadijakamal342@gmail.com*

bistanı habelə Amerika hərbi müşavirlərinə və İrandan qaçan inqilab əleyhdarlarına sığınacaq vermişdi. 1980-ci ildə İran-İraq müharibəsinin başlamasından bir neçə ay sonra bölgədəki İran inqilabının təsirinə qarşı müdafiə xətti yaratmaq, xüsusən daxili iğtişaşların qarşısını almaq və regional azadlıq hərəkatını yatırmaq, habelə ər-Riyadın qonşu ölkələrə təsirini genişləndirmək, eyni zamanda İranın regional mövqeyini sarsıtmaq və digər ölkələrlə iqtisadi və siyasi əməkdaşlıq qurmaq məqsədilə İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası yaradıldı. Şuraya Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ, Oman, Qətər və Bəhreyn kimi ölkələr daxil idi.

1980-ci ildə İran-İraq müharibəsinin başlaması, həmçinin Səudiyyə Ərəbistanı tərəfindən İraqa verilən dəstək İranla Səudiyyə Ərəbistanı arasındakı münasibətlərin əhəmiyyətli dərəcədə pisləşməsinə səbəb oldu (8). İraqın İrana hücumunun başlanması Səudiyyə Ərəbistanına Səddam Hüseynlə birlikdə İran İslam Respublikasının yeni rejiminə qarşı çıxmaq imkanı yaratdı (11). BƏƏS rejiminin İrana qarşı apardığı 8 illik müharibə zamanı Səudiyyə Ərəbistanı Səddama hər cür siyasi, maliyyə, kəşfiyyat və silah dəstəyi verdi. Səudiyyə Ərəbistanı İranla müharibədə İraqı dəstəklədi və müharibə zamanı ona təxminən 30 milyard dollar yardım göstərdi. Neft bazarında İran və İraq neftinin olmaması səbəbindən Səudiyyə Ərəbistanı neft hasilatını artırdıqdan sonra, habelə BƏƏ, Küveyt və daha sonra Qətər oxşar yanaşma göstərdiyindən, İran neft quyularının qorunması ilə bağlı bəyanat verdi. Bu bəyanata görə, hər hansı Körfəz ölkəsi İraqa dəstək verərsə, döyüş bölgəsi bu ölkələri də əhatə edəcək (5). Səudiyyə Ərəbistanı hər gün neytral ərazilərdən 280.000 barel neft çıxararaq İraqa satırdı. Gündəlik 300-500 barel neft İraq ərazisindən keçirdi. İraq ordusunun ehtiyac duyduğu malların və hərbi ləvazimatların daşınması üçün bir sıra limanlar və aeroportlar ayrılmışdı.

İraqın Küveytə hücumu (Körfəz müharibəsi) zamanı Səudiyyə Ərəbistanının kralı Fəhd demişdi: "İraq liderinin (Küveytin işğalı zamanı) hərəkətləri onun İranla səkkiz illik müharibə dövründə Səudiyyə Ərəbistanı tərəfindən göstərilmiş hərbi yardımı qiymətləndirmədiyini göstərir; İraq öz xalqı arasında insan itkisindən danışırsa, biz də pul, müasir silahlar və beynəlxalq əməkdaşlıq sahəsində səy göstərmişik" (6).

Səudiyyə Ərəbistanının hakimiyyət dairələri müharibə dövründə İranı təcrid etmək və İraqdakı BƏƏS rejimini gücləndirmək üçün bütün mümkün diplomatik səyləri göstərdi. Belə cəhdlər sırasında ABŞ, Misir, İordaniya, Mərakeş və s. daxil olmaqla bir sıra ölkələrlə siyasi məsləhətləşmələr də qeyd olunmalıdır. Səudiyyə rejimi habelə İslam Əməkdaşlıq Təşkilatında üstünlüyü ələ keçirmək və İrana təzyiq göstərmək məqsədilə onun qərarlarına dəyişiklik etmək niyyətində idi. Bundan əlavə, Səudiyyə Ərəbistanının özünün rəhbərliyi altında İran Körfəzinin Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası ən təsirli qurum olaraq qalırdı. Səudiyyəlilər, bir tərəfdən Şuranın hərbi-siyasi aspektlərini gücləndirir, digər tərəfdən isə İran-İraq müharibəsində İslam inqilabını dəstəkləyən yeganə ərəb ölkəsi olan Suriyaya təzyiq göstərməklə İranı zəifləmətməyə çalışırdılar (19). Bundan əlavə, İslam ordusunun "8-ci şəfəq" əməliyyatında uğur qazanmasından sonra 4 mart 1985-ci ildə İran Körfəzinin Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının təcili iclası keçirilmişdi. Səudiyyəlilərin ən böyük zərbəsi 1987-ci ildə Məkkədəki qarşıdurmalarda İran Xalqının Mücahidləri Təşkilatı (İXMT) ilə əməkdaşlıq etməsi oldu, nəticədə Tehran və ər-Riyad münasibətləri kəsdi. 1987-ci ilin iyul ayında Məkkədə Səudiyyə təhlükəsizlik qüvvələri ilə toqquşma nəticəsində 400-dən çox iranlı zəvvarın faciəvi ölümündən sonra ölkələr arasında münasibətlər kəskin həddə çatdı. 1988-ci ilin aprel ayında Səudiyyə Ərəbistanı İran İslam Respublikası ilə münasibətlərini birtərəfli qaydada kəsərək, İran diplomatlarının Səudiyyə Ərəbistanını tərk etməsini bir həftələngitdi. Üç ilə yaxın müddət ərzində münasibətlər bərpa olunmadı, bu dövrdə iranlılar Həcc mərasimində iştirak edə bilmədilər (12).

Hərbi kəşfiyyat rəhbəri Sabir Abdel Əziz əd-Duri ilə danışıqlarda təqdim olunan Məsud Rəcəvinin məlumatlarına əsasən, Məkkədəki qarşıdurmalar zamanı mücahidlər qrupunun rəhbəri Fəhd ibn Əbdüləziz əs-Səuddan rəsmi dəvət aldı və 1987-ci ildə gizli olaraq Səudiyyə Ərəbistanına getdi (12). Bundan əlavə, İran Körfəzinin Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının baş katibi Haşim əl-Maskari bildirmişdi: "Məkkədə baş verənlər İran-İraq müharibəsinin nəticəsi deyildir".

Səudiyyə rejimi eyni zamanda İran İslam Respublikasının iqtisadiyyatını sarsıtmaq və onun valyuta gəlirlərini azaltmaq üçün neft müharibəsinə başladı. Neftin qiymətini aşağı salmaqla səudiy-

yəlilər İran iqtisadiyyatını iflic etməyə çalışırdılar. Nəticədə neftin qiyməti bir barel üçün 6 dollar oldu. Digər neft çıxaran ölkələrlə birlikdə Səudiyyə Ərəbistanı İran neftinin hasilatına və ixracına maneçilik törədirdi. Səudiyyə Ərəbistanı bu strategiya çərçivəsində aşağı qiymətləri bir-iki il ərzində saxlamağa çalışırdı (17). Bu səbəbdən, İranın neft naziri OPEK-in 70-ci sammitində Səudiyyə Ərəbistanının düşmən mövqe tutduğunu vurğulamışdı: "Qiymət müharibəsi Səudiyyə Ərəbistanında başlayan Amerika təşəbbüsüdür; bu iddialı dövlət neftin qiymətini aşağı salmaqla və İran iqtisadiyyatını sarsıtmaqla müharibənin gedişatını dəyişdirmək niyyətindədir".

Səudiyyə Ərəbistanının İraqa dəstək verilməsindəki rolunun açıqlanmasından çəkinən səudiyyəlilər İran İslam Respublikasının müxalifətinə maddi yardım göstərilməsi faktını gizli saxlayırdılar. Səudların neft dollarları müharibə dövründə İraqın əsas maliyyə mənbəyi kimi çıxış edirdi. 1982-ci ildə Xorrəmşəhrin azad edilməsindən və bəasçılər üzərində qələbədən sonra Səddamın İran İslam İnqilabına qarşı müharibəni davam etdirmək üçün Səudiyyə rejimindən və İran körfəzi regionunun digər rejimlərindən 20 milyard dollar aldığı məlum olmuşdu. İraq rejimi habelə "Bədr" və "Şəfəq-8" əməliyyatları zamanı Səudiyyə Ərəbistanından və BƏƏ-dən 29 milyard dollar almışdı. Bundan əlavə, Səudiyyə hakim dairələri bir sıra hərbi sifarişlərdə Səddamın maliyyə vasitəçisi rolunu yerinə yetirmişdi. Səudiyyə Ərəbistanı müharibə zamanı İraqın Fransadan aldığı silah üçün 10 milyard frankdan çox pulu ödəməyə hazır olduğunu bildirmişdi. Səudiyyə kralı Fəhd demişdi: "İraqa kreditlərin, neft və ya silah göndərilməsi şəklində verilən və digər yardımların ümumi həcmi 27,5 milyard dollardan artıqdır. Bu məbləğə 5,84 milyard dollar kredit, 6,75 milyard dollar dəyərində neft, 9,25 milyard dollar faizsiz borc, 2,74 milyard dollar dəyərində hərbi texnika daxildir".

Səudların maliyyə yardımının həcmi elə bir həddə çatmışdı ki, İraq əsgərləri üçün iri hərbi texnikadan standart ləvazimata qədər hər şeyi əhatə edirdi; hər şey Səudiyyə Ərəbistanının vəsaiti hesabına alınırdı (6). İraqın Küveytə hücumundan sonra Səudiyyə Ərəbistanının müdafiə naziri bildirmişdi: "Səudiyyə Ərəbistanını təhdid etmək istəyən İraq, yəqin ki, İranla müharibə zamanı əsgərlərin suyunun da bizim pulumuzla alındığını unudub" (14).

Əslində Səudiyyə rejiminin İraq BƏƏS-i ilə kəşfiyyat əməkdaşlığının müasir müharibələr tarixində bənzəri yoxdur. Bu əməkdaşlıq səudiyyəlilərin 22 sentyabr 1980-ci il hərəkatının qələbəsi ilə İslam inqilabına zərbə vurmağa cəhd etdiyini göstərir. Müharibənin başlamasından cəmi ay yarım əvvəl Səudiyyə Ərəbistanının rəsmi dairələri Səddama İranın iqtisadi, sosial və hərbi vəziyyətini təsvir edən Amerika kəşfiyyatının hesabatlarını "hədiyyə etmişdi". Bundan əlavə, müharibə zamanı qabaqcıl kəşfiyyat vasitələrinin, o cümlədən uzaq mənzilli radarların aşkarlanması və idarə olunması sisteminin (UMRAİ) köməyi ilə Səudiyyə rejimi dəfələrlə İraqa ABŞ-ın əldə etdiyi məlumatları təqdim etmişdi. Söhbət İran silahlı qüvvələrinin yerləşməsi və cəmləşməsi nöqtələrinin dəqiq peyk şəkillərinin ötürülərək İraqa İranın əməliyyatlarının təfərrüatlarını açıqlamağa kömək edən strateji əhəmiyyətli məlumatlardan gedirdi. 1984-cü ilin mayında Səddam Hüseyn belə bir məlumatın alındığını təsdiqləmişdi (14).

Digər tərəfdən, Səudiyyə Ərəbistanının ABŞ-dakı səfiri Bəndər ibn Sultan əs-Səud demişdi: "Səudiyyə Ərəbistanı İraq müharibəsinin son illərində Vaşinqton və Bağdad arasında vasitəçi rolunu oynadı; İranın silahlı qüvvələrinin hərəkəti barədə qiymətli hərbi-kəşfiyyat məlumatları ABŞ kəşfiyyat mənbələrindən alınaraq Bağdad rejiminə ötürülürdü. İraq ABŞ-ın, əsasən İranın planları haqqında məlumatlarla bağlı hərbi yardımına ehtiyac duyurdu. Səudiyyə Ərəbistanı bütün lazımi köməyi təmin edirdi" (4).

ABŞ-ın 39-cu prezidenti Cimmi Karter Səudiyyə Ərəbistanının İranın hərbi gücü ilə bağlı narahatlığı barəsində bildirmişdi: "Mən Səudiyyə rəsmiləri ilə İran təhlükəsi haqqında danışdım və təhlükəsizliyin təmin edilməsi naminə yarımadaya uzaq mənzilli radarların aşkarlanması və idarə olunması sisteminin (UMRAİ) göndərilməsinə qərar verdim. Bundan əlavə, mən İran F-4-lərinə qarşı Amerikanın F-15 qırıcı təyyarələrini göndərməyə hazır idim". UMRAİ, bomba atmaq üçün F-15 qırıcı təyyarələri, tanker-təyyarələr, daşıyıcı raketlər və F-15-i dəstəkləyən iri tankerlər ABŞ-ın İrana qarşı müharibə zamanı səudlara verdiyi hərbi texnikanın bir hissəsi idi (7).

Müharibə zamanı Səudiyyənin hərbi dəstəyi yalnız silah göndərilməsi ilə məhdudlaşmırdı, Səudiyyə Ərəbistanının Daman limanından İraqın infrastrukturu ilə bağlı hərbi texnika nəql olunurdu. Bundan əlavə, Səudiyyə rejimi birbaşa hərbi zərbələrə dəstək verirdi. Səudiyyə Ərəbistanının kralı Fəhd səudiyyəlilərin İraq ordusunun təchiz edilməsində və gücləndirilməsində iştirakını etiraf etmişdi. Səudiyyə Ərəbistanı və Səddam rejimi İrana qarşı əməkdaşlığı genişləndirirdi. Səudiyyə Ərəbistanı İraq rejiminə çoxlu miqdarda silah vermişdi, bundan əlavə, Səddama başqa formalarda kömək göstərilirdi. Əmir Abdullah bu məqsədlə Bağdada dəfələrlə səfər etmişdi.

Səudiyyə Ərəbistanının müharibədə dəstəkləyici rolunun təhlili onun İran İslam İnqilabına düşmən münasibətini daha dərindən anlamağa kömək edir. 2 fevral 1991-ci ildə keçirdiyi mətbuat konfransında Səudiyyə Ərəbistanının Kralı Fəhd BƏƏS rejimini dəstəkləməyə yönəlmiş fəaliyyətini etiraf edərək, İslam Respublikasının onunla İran körfəzi regionunun dövlətləri arasında baş vermiş faciəli hadisələri arxada qoyacağına ümid etdiyini bildirmişdi.

e) 1989-2002-ci illər. Bu dövrdə fövqəlmilli və beynəlxalq əhəmiyyətli amillər yalnız İran və Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə deyil, həm də İran körfəzi, Yaxın Şərq və bütün dünya dövlətləri arasındakı münasibətlərə təsir etdi. Hələ 1989-cu ildə ABŞ hökumətinin regional strategiyası "arzuolunan" nəticəni vermişdi. Sovet İttifaqı Əfqanıstandan çıxmış və bölgədə ABŞ-nın maraqlarına İran və Sovet İttifaqı tərəfindən yaradılan təhlükə bir müddət aradan qaldırılmışdı. Başqa sözlə, ABŞ üç əsas hədəfinə çatmışdı: İrana təzyiq, İran körfəzi regionunda təhlükəsizliyin təmin edilməsi və neft ehtiyatlarına və fasiləsiz neft axınına sərbəst çıxış. Digər tərəfdən, İran və İraq arasındakı müharibənin sona çatmasının xüsusiyyətləri Səudiyyə Ərəbistanının siyasətində dəyişikliyə səbəb oldu. Kənardan gələn kömək İraqı barışıq əldə etməyə sövq etdi və nəticədə İraq psixoloji qələbə çaldığını bəyan etdi. O dövrdə İraq İrandan daha çox narahatlıq doğururdu, Səddam Hüseynin iddiaları isə ən böyük təhlükə idi.

1990-2000-ci illər arasında dünyanın üçüncü ən böyük neft hasilatçısı və OPEK ölkələri arasında birinci olan Səudiyyə Ərəbistanı enerji ehtiyatlarına çıxışın genişləndirilməsi, neft axınının davamlılığı və rəqiblərin təsir dairəsinin məhdudlaşdırılması məsələlərinə böyük diqqət yetirirdi. Ölkə ABŞ-ın siyasi prioritetləri çərçivəsində də əsas rol oynayırdı. Bundan əlavə, Səudiyyə Ərəbistanının ərəb və İslam ölkələri arasında unikal rolu və strateji mövqeyi ABŞ üçün böyük maraq kəsb edirdi. 1993-cü ildə yayımlanan televiziya müzakirələrindən birində amerikalı neft analitiki Edvin Rotşild demişdi: "Amerikanın Səudiyyə neftindən həddindən çox asılılığı günbəgün artacaq və dövlət təhlükəsizliyimizi təhdid edəcəkdir" (18).

XX əsrin 90-cı illərində səudiyyəlilər amerikalılarla yaxşı münasibətlər saxlayaraq tədricən İranla əlaqələr qurdu. Bu mövqedən çıxış edərək İranla münasibətləri sülh yolu ilə qurmaq mümkündür (9).

Digər tərəfdən, İran da Səudiyyə Ərəbistanı ilə əlaqələri genişləndirməyə cəhd göstərirdi. Belə ki, münasibətlərin genişlənməsi nəticəsində 1998-ci ilin fevral ayında A.A.Haşimi-Rəfsəncani Səudiyyə Ərəbistanını ziyarət etdi, Abdullah ibn Əbdüləziz əs-Səud tərəfindən mehribanlıqla qarşılandı və digər şahzadələrlə görüşdü. O, həmçinin Mədinədəki əl-Bəqi qəbiristanlığına gələn İran həcc heyətinə başçılıq etdi. Bu görüşlər, o cümlədən iki ölkənin nüfuzlu şəxslərinin səfərləri və Abdullah ibn Əbdüləziz əs-Səudun milli şirkətinin Tehranda keçirilən İslam ölkələrinin zirvə görüşündə təmsil olunması münasibətlərdə yeni fəsil açdı.

Lakin şübhəsiz ki, bu dövrün ən mühüm hadisəsi 11 sentyabr 2001-ci il terror hücumu və 11 səudiyyəlinin bu aksiyada iştirak etməsi oldu. 1993-cü ildə Dünya Ticarət Mərkəzindəki partlayış, 1998-ci ildə ABŞ-ın Tanzaniya və Keniyadakı səfirliklərinin dağıdılması, 1996-cı ildə Səudiyyə Ərəbistanındakı Xobar Qüllələrinə edilən hücum və Yəmən sahilindəki ABŞ HHQ-lərinə hücum - bütün bu hadisələr ABŞ-a qarşı yönəlmişdi. 11 sentyabr hadisələri bu zəncirin son həlqəsi oldu (16).

Bu hadisələr Körfəz regionunda və Yaxın Şərqdə təhlükəsizlik və sabitliyin qorunması problemləri, bölgə ölkələrinin demokratikləşməsi ilə birbaşa bağlı olan mövqeləri və görüşləri gücləndirdi. Eyni zamanda, beynəlxalq aləmin böyük subyektləri, xüsusən də ABŞ bu hadisələrdən əvvəl bölgədəki daxili böhranı (insan hüquqlarının pozulması, inzibati və iqtisadi korrupsiyanın səviyyə-

sinin artması və s.) nəzərə almamışdılar. Regionda enerji təhlükəsizliyini təmin etmək üçün ərəb dövlətləri və hökumətləri, o cümlədən Səudiyyə Ərəbistanı ilə "xüsusi münasibətlər" qurulmuşdu. 11 sentyabr hücumlarından sonra Vaşinqton və ər-Riyad arasındakı münasibətlərin "qızıl əsri" hər iki tərəfdən etimadsızlıq və şübhələr dövrü ilə əvəzləndi. Yeni şəraitdə ABŞ region ölkələrini Qərbin inkişaf modellərinə əsaslanan genişmiqyaslı islahatlar aparmağa və struktur dəyişikliklərinə təşviq etməyə çalışırdı. Lakin belə islahatların həyata keçirilməsi digər ənənəvi regional dövlətlərdə olduğu kimi, Səudiyyə Ərəbistanında da mövcud dövlətçiliyin əsaslarını sarsıda bilərdi.

11 sentyabr 2001-ci il hücumları İran və Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə aşkar təsir göstərdi. Səudiyyə Ərəbistanının səyləri ABŞ-ın inamını bərpa etməyə imkan verdi və ər-Riyadı Tehrandan uzaqlaşdırdı. Ölkədə 11 sentyabr hücumlarından sonra ABŞ mediası və rəsmilərinin İrana qarşı istifadə etdiyi "kəskin dil" dəstəklənirdi. Terror hücumlarından sonra diqqət ətrafında beynəlxalq gərginliyin artdığı İrana yönəldi (3).

## ƏDƏBİYYAT

1. Rafiq bəy İsmayıl. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 1-ci kitab. Bakı, 2002
2. Rafiq bəy İsmayıl. Nərgiz Axundova. Aida Bağırova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 2-ci kitab. Bakı, 2003.
3. Asadi S. Effective variables in Foreign Policy of Saudi Arabia // Foreign Policy Quarterly, 2011.
4. Holland J. The First Iraq War Was Also Sold to the Public Based on a Pack of Lies // Moyers & company, 2014. http://billmoyers.com/2014/06/27/the-first-iraq-war-was-also-sold-to-the-public-based-on-a-pack-of-lies/.
5. Homayun B. Secret relations between the United States and Saudi Arabia (weapon-oil-Iran-Iraq) // Magazine of political and economic information.
6. Invasion Revisited: How Saudi Arabia backed Saddam‟s war on Iran? // The Iran Project, 2016. http://theiranproject.com/blog/ 2016/09/28/invasion-revisited-saudi-arabia-backed-saddams-war-iran/
7. Iran, the United States and a Political Seesaw // The New York Times, 2012. http: //www. nytimes. com/ interactive/2012/04/07/world/middleeast/iran-timeline.html
8. Iran-Iraq war. https://www.saylor.org/site/wp-content/ uploads/ 2011/ 08/ HIST351-11.1.4-Iran-Iraq-War.pdf .
9. Jones P. Towards a regional security regime for the Middle East // Stockholm International Peace Research Institute (SIPRI), 1998. https://www.files.ethz.ch/isn/96416/1998_12_SIPRI98Jones.pdf.
10. Kamali H.R. Iran and Saudi Arabia: Past and Future // Iran Review, 2014. http: //www. iranreview. org/ content/ Documents/Iran-and-Saudi-Arabia-Past-and-Future.htm
11. Katzman K. Iran: U.S. Concerns and Policy Responses. // Congressional Research Sources, 2012. https:// www.hsdl.org/?view&did=704460
12. Kofner J. 400 die as Iranian marchers battle Saudi police in Mecca; embassies smashed in Teheran // The New York Times, 1987. http://www.nytimes.com/1987/08/02/world/400-die-iranian-marchers-battle-saudi-police- mecca-embassies-smashed-teheran.html?pagewanted=all
13. Lahouti A. United States of America and security of the Persian Gulf // Magazine of political and economic information.
14. Mofid K. The cost of the Iran-Iraq war has been estimated at $1.097 billion //The Economic Consequences of the Gulf War. New York: Routlefge, 1990.
15. Sadat A.R. Saudi Arabia // Foundation of printing and publishing of the Ministry of Foreign Affairs. 1995.

16. Significant Terrorist Incidents, 1961-2003: A Brief Chronology // U.S. Department of State archives. https://2001- 2009.state.gov/r/pa/ho/ pubs/fs/5902.htm

17. The 1979 "Oil Shock:" Legacy, Lessons, and Lasting Reverberations // The Middle East Institute, Washington, DC.
http://www.la.utexas.edu/users/chenry/public_html/elephants/OilShock201979-Final.pdf

18. The arming of Saudi Arabia, 1993. http: //s3. amazonaws. com/911timeline/1990s/frontline0121693.html

19. The Imposed war and Oil – second part: the role of oil in the continuation of the Holy Defense // The site of the holy defense science and education research center.
http://www.dsrc.ir/View/article.aspx?id=713 .

20. The Kings Of The Kingdom. King AbdulAziz bin AbdulRahman bin Faisal Al Saud (1876 – 1953) // Ministry of Commerce and Investment.http:// mci. gov. sa/ en/ AboutKingdom/ Pages/ KingdomKings.aspx.

## *РЕЗЮМЕ*

***Хаджар Сафиева***

### *Основные этапы развития ирано-саудовских отношений в XX веке*

***Ключевые слова:*** *Иран, Саудовская Аравия, внешняя политика, ислам, война*

В статье дан краткий обзор развития ирано-саудовских отношений в XX веке. Автором представлен общий анализ основных «болевых точек», в отношениях двух стран. Особое внимание уделено изменениям во внешней политике Ирана и Саудовской Аравии под влиянием международной обстановки.

## *SUMMARY*

***Hajar Safieva***

### *The main stages in the development of Iran-Saudi relations in the 20th century*

***Keywords***: *Iran, Saudi Arabia, foreign policy, Islam, war*

The article gives a brief overview of the development of Iranian-Saudi relations in the twentieth century. The author gives a general analysis of the main key points in the relations between the two countries. Particular attention is paid to changes in the foreign policy of Iran and Saudi Arabia under the influence of the international situation.